# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №19 (59) • 11.07.2011

AzadliqRadiosu.az®

**Alman jurnalist Naxçıvanı tərk etməli olub**
səh.2

**Bank müxalifətçilərə açılan hesabı niyə bağlayıb?**
səh.3

**Nemət Pənahlı iyulun 2-dən aclıq aksiyası keçirir**
səh.4

**«Dedilər burdan prezident keçəcək, ev sökülməlidir»**
səh.6

**Призывы Алиева**
səh.7

**Nefti artıq azalan Azərbaycan**
səh.11

Akif İslamzadə: **«Bəlkə Azərbaycanda monarxiya quraq?!”**
səh.13

## Bakı avtovağzalının sahibi Vircin adalarından çıxdı




səh.9-10

- Avtovağzalın dövlət puluna tikildiyi bəyan edilmişdi
- İndi nazirin qardaşına məxsus şirkət vağzalı idarə edir

## III qrup üzrə imtahanlarda 70 faiz abituriyent kəsilib

İyulun 6-da III qrup üzrə ali və orta təhsil məktəblərinə qəbul imtahanlarının nəticələri açıqlanıb. Nəticələrə görə, imtahanlarda iştirak edən 30 min 981 abituriyentdən 8 min 981 nəfər müsabiqədə iştirak hüququ qazanıb. Yəni imtahanlarda iştirak edən abituriyentlərin 70 faizdən çoxu müsabiqədə iştirak hüququnu itirib.

səh.11




Abid Şərifov: **“Bakının dörd bir yanı minalanıb”**
səh.6

Zərdüşt Əlizadə: **«Rusiya Azərbaycanın xeyrinə heç nə etməyəcək»**
səh.8

**İctimai Palata korrupsiya piramidasından danışdı**
səh.14

# Alman jurnalist Naxçıvanı tərk etməli olub


Mixael Lüdviq

**Almaniyalı jurnalist, «Frankfurter Allgemeine Zeitung» qəzetinin Moskva bürosunun müxbiri Mixael Lüdviq iyulun 7-də Naxçıvan Muxtar Respublikasını tərk etməyə məcbur olub.**

O, Naxçıvana reportaj hazırlamaq üçün iyulun 5-də gedib. Azərbaycanın Xarici İşlər Nazirliyində akkreditə olunmuş qəzetçi RATİ-yə deyib ki, işini yarımçıq dayandırmasına səbəb yerli hakimiyyətin onun işinə mane olması və onun izlənməsidir: «Məqsədim muxtar respublikanın bütün rayonlarını gəzmək, yerli əhali ilə görüşüb onların yaşayış səviyyəsi ilə tanış olmaq, problemlərini, çətinliklərini öyrənmək və bu haqda məqalə yazmaq idi. Azərbaycan Xarici İşlər Nazirliyindən verilmiş akkreditə kartını göstərməyimə baxmayaraq, Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini mənə Ali Məclisdə qeydiyyatdan keçməyin lazım olduğunu bildirdi. Halbuki buna ehtiyac yox idi. Dedi ki, qeydiyyatdan keçməsəniz, sizin üçün böyük problemlər olacaq. Bundan sonra biz Ali Məclisə müraciət etdik. Amma onlar mənim burada işləməyimə icazə vermədilər».

Jurnalist deyib ki, Xarici İşlər Nazirliyinin yerli idarəsinə müraciətdən sonra ona bələdçi veriblər, bələdçi isə hər an harada olduqları, kiminlə görüşdükləri haqda telefonla kiməsə məlumat verib: «İnsanlar bələdçidən qorxaraq danışmaqdan imtina etdilər. Məni əvvəlcədən təlimatlandırılmış insanlarla görüşdürməyə çalışdılar. Şərur rayonunda isə bələdçi sürücüyə mənimlə rus dilində danışmaması üçün təzyiq etdi». /mediaforum/

Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Elxan Poluxov isə AzadlıqRadiosuna deyib ki, Mixael Lüdviq akkreditasiyadan keçəndə, hansı bölgəyə səfər edəcəyini göstərməyib: «Akkreditasiya qaydalarına əsasən, əcnəbi jurnalist rəsmi məktubunda hansı bölgələrə səfər edəcəyini göstərməlidir. Çünki Azərbaycan qonşu Ermənistanla münaqişə vəziyyətindədir. Bu tələb jurnalistlərin təhlükəsizliyini təmin etmək üçündür».

Şahbuz Rayon İcra Hakimiyyətindən məsələyə münasibət öyrənmək mümkün olmadı.

# Eynulla Fətullayev kimi Azərbaycana dəvət etdi?

*«İşdən sonra» proqramında jurnalist Eynulla Fətullayev Strasburq demarşı, Azərbaycanın beynəlxalq təşkilatda üzvlüyünün ölkədə insan hüquqlarının perspektivinə təsiri barədə danışır: «Mövcud vəziyyətin aradan qaldırılması üçün ən faydalı görüş Strasburqda siyasi məhbuslar üzrə məruzəçi Kristofer Ştrasserlə oldu. Ştrasser bizə dedi ki, hökumət mənimlə işləməkdən imtina edir, məni Azərbaycana buraxmır. Mən ona təkliflə müraciət edərək dedim ki, Sizi dəvət etmirlərsə, biz Sizinlə birlikdə bir rəmzi aksiya keçirə bilərik. Mən Sizi Azərbaycana öz şəxsi qonağım kimi dəvət etməyə hazıram. Keçmiş siyasi məhbus olaraq Sizi Azərbaycana siyasi məhbuslar*


Eynulla Fətullayev

*üzrə məruzəçi kimi dəvət edirəm. Biz burda konfrans keçirə bilərik və bu problemi Azərbaycanda aktuallaşdıra bilərik. Ən azı ictimai diqqəti bu məsələyə bir daha yönəldə bilərik. Mən dedim ki, sonra birlikdə siyasi məhbusların olduğu həbsxanalara gedərik. Qoy Sizi həbsxanalara buraxmasınlar. Mən artıq sabah ona dəvətnamə yollayıram. Bu, mənim şəxsi dəvətnaməmdir. Ştrasser Azərbaycanda mənim şəxsi qonağım olacaq. Lakin mütləq həbsxanalara yollanacağıq...».*

**Eynulla Fətullayev Tomas Yaqlanda nələri dedi?**

**Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlu ilə görüşdən niyə imtina etdi?**

**Bu sualların cavabını bilmək istəyirsinizsə, AzadliqRadiosu.az saytından verilişi tam olaraq dinləyin.**

# Bəxtiyar Hacıyev haqqında hökm qüvvədə qaldı


Solidə Mövlayeva

İyulun 6-da Gəncə Şəhər Apelyasiya Məhkəməsi gənc fəal Bəxtiyar Hacıyevin 2 illik həbsindən verilən şikayətə baxıb. Hakim Çingiz Məmmədov əvvəlki instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb. B.Hacıyev AzadlıqRadiosuna deyib ki, barəsində verilən qərarlardan sonra ölkəsinə inamı qalmayıb: «İnamım ancaq Avropa Məhkəməsinədir. Hakimiyyət başa düşməlidir ki, mənim kimi fərqli düşüncəli gəncləri kənara itələməkdənsə, onları həbs etməkdənsə, dinləmək daha xeyirli olar. Bu, dövlət üçün də xeyirli olardı».

**ALİ MƏHKƏMƏYƏ ŞİKAYƏT SƏNƏDLƏRİ HAZIRLANIR**

Hüquq müdafiəçisi İntiqam Əliyev deyir ki, artıq Bəxtiyar Hacıyevin işi üzrə Apelyasiya Məhkəməsinin qərarından Ali Məhkəməyə kasasiya şikayəti hazırlanır. Həmçinin paralel olaraq Avropa Məhkəməsinə də şikayət veriləcək.

**QANUNLAR GET-GEDƏ ƏYİLİR**

B. Hacıyevin anası Solidə Mövlayeva AzadlıqRadiosuna deyib ki, indiyədək olan məhkəmə proseslərindən sonra Ali Məhkəmənin də qərarından yaxşı nəticə gözləmir:«Qanunlar hələ ki, əyilir. Əvvəl deyirdim «Allah gənclərimizi bu hakimiyyətdən qorusun». İndi deyirəm «hakimiyyəti gənclərdən qorusun».

***Gülnur Raqifqızı***

# Bank müxalifətçilərə açılan hesabı niyə bağlayıb?


Arxiv foto. İctimai Palata

**İctimai Palatanın 2 aprel mitinqində həbs olunanların ailələrinə yardım üçün açılan bank hesabı bağlanıb. Palatanın İnsan Haqları və Azadlıqlarının Müdafiəsi Komitəsinin sədri Vidadi Mirkamal AzadlıqRadiosuna belə deyib. Onun sözlərinə görə, ötən həftənin 5-ci günü "Access Bank"ın Binəqədi şöbəsində Azərbaycan manatı, ABŞ dolları və avro valyutası ilə bank hesabları açıblar və bu hesabları mətbuatda yayıblar:**

- Bir gün sonra mənə zəng vurdular ki, sizin bank hesabınızla bağlı problem yaranıb, banka gəlin.

Vidadi Mirkamal danışır ki, həftənin birinci günü bankın filialına gedəndə onu müdirin otağına dəvət ediblər:

- Gördüm ki, müxalif yönlü qəzetləri yığıblar stolun üstünə. Müdir mənə dedi ki, hesab nömrəniz mətbuatda yayılıb, pul yığırsız. Mən də dedim ki, bundan sizə nə? Sizin vəzifəniz mənim adıma gələn vəsaiti toplayıb mənə təqdim etməkdən ibarətdir.

**«...SƏHMDARLARA MÜRACİƏT EDƏCƏYİK»**

Vidadi Mirkamal deyir ki, filial rəhbərliyi ona bankdakı hesabların rəsmən bağlandığını elan edib. Amma ona bunu təsdiqləyən hər hansı bir sənəd verməyib:

- İndi biz bu hesaba pul köçürəcəyik, əgər vəsait qəbul olunmasa, bildirilsə ki, hesab bağlanıb, onda bunu əsas götürüb məhkəməyə və bankın səhmdarlarına müraciət edəcəyik.


Yalçın İmanov

- Biz ona görə "Access Bank"ı seçdik ki, onların səhmdarları xaricdə yerləşirlər, onu bir Avropa bankı saydıq. Amma belə deyilmiş, onlar da siyasi təzyiqdən uzaq deyillərmiş.

Vidadi Mirkamalın sözlərinə görə, onlar belə bir hesabı xarici ölkələrin birində açmağı fikirləşirlər.

**«BANK HESABLAR HAQQINDA MƏLUMATLARI ŞƏRH ETMİR»**

Biz məsələyə "Access Bank"dan aydınlıq gətirməsini istədik. Banka göndərdiyimiz yazılı sorğuya cavab verdilər ki, onlar ölkənin mövcud bank qanunvericiliyinə və müştərilərlə bağlanan müqavilənin şərtlərinə görə, müştərinin bank hesabları haqqında məlumatları gizli saxlamağa borcludurlar: «Ona görə də "Access Bank" Qapalı Səhmdar Cəmiyyəti bank hesabları haqqında heç bir məlumatı şərh etmir», - bankın açıqlamasında deyilir.

**BANKIN SƏHMDARLARI**

"Access Bank"ın rəsmi saytında verilən məlumata görə, nizamnamə kapitalı 100 faiz xarici kapitaldan ibarətdir və altı beynəlxalq maliyyə institutuna məxsusdur. Bu səhmdarlar arasında Qara Dəniz Ticarət və İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, KfW - Kreditanstalt für Wiederaufbau kimi maliyyə institutları var.

**«MÜŞTƏRİ AYRI-SEÇKİLİYİ MƏHKƏMƏ PREDMETİ OLA BİLƏR»**

Hüquqşünas Yalçın İmanov AzadlqRadiosuna bildirib ki, əgər bankın müştəriyə ayrı-seçkilik göstərməsi faktı təsdiqlənərsə, bu məsələ məhkəmə predmeti ola bilər. İqtisadçı Vüqar Bayramov isə deyir ki, hesabla bağlı məsələ müqavilənin şərtlərindən asılıdır və müştəri Vidadi Mirkamal rəsmi şəkildə banka müraciət etməlidir ki, hesabının bağlanmasının səbəbini öyrənsin. Ekspert bildirir ki, müştəri cavab almadığı təqdirdə məhkəməyə üz tuta bilər.

Vidadi Mirkamal deyir ki, onların müqaviləsində hesabın yayılmasını qadağan edən və ya məhdudlaşdıran bənd olmayıb.

***Səadət Akifqızı***

# Avropa Məhkəməsi əqidəsinə görə hərbi xidmətdən imtinanı haqlı bildi

İyulun 7-də Avropa Məhkəməsi Ermənistan vətəndaşı, "Yəhova şahidləri" dini icmasının üzvü Vahan Bayatyanın xeyrinə qərar verib. Vahan Bayatyan 2003-cü ildə etiqadına görə hərbi xidmətdən imtina elədiyi üçün 2 il yarım müddətinə həbs olunub. Avropa Məhkəməsinin qərarına görə, dövlətlər fikir azadlığı, vicdan və dini hüquqların tərkib hissəsi kimi etiqada görə hərbi xidmətə etiraz hüququnu da tanımalıdır.

Yalnız Azərbaycan və Türkiyə dini etiqada görə hərbi xidmətə etiraz hüququnu tanımır.

"Amnesty İnternational"ın direktoru Michael Bochenek bildirib ki, Avropa ölkələrindən yalnız Azərbaycan və Türkiyə bu hüququ tanımır, indi gərək dərhal bu yöndə fəaliyyətə başlasınlar. Onun sözlərinə görə, bugünkü qərar əqidə etirazına beynəlxalq yanaşmanı aydın göstərib.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Gürcüstan XİN: **saxlanan 3 fotomüxbir Rusiyaya casusluq edib**


**2012-ci ildə hüquqi şəxslərin onlayn-qeydiyyat sistemi tətbiq ediləcək**



**22 min insanın ABŞ-da yaşamaq arzusu necə puç oldu?**

# İslam Partiyasının sədri məhkəmə qarşısına çıxarıldı



Mövsüm Səmədov

Hakim:

*- Səmədov, qalxın.*

- Bismillahirrəhmanirrəhim.

*- Səmədov, cinayət işinin materialları ilə tanış olmusunuz?*

- Bəli. Vəkilimdən xahiş edirəm ki, məhkəmə prosesi əsassız olduğuna görə, əsaslı dəlillər gətirilmədiyinə görə, bizim azadlığa buraxılmağımız, işə xitam verilməsi ilə əlaqədar vəsatət qaldırsın.

**MƏHKƏMƏ SALONUNDA TƏKBİR SƏDALARI**

İyulun 8-də Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan İslam Partiyasının (AİB) sədri Mövsüm Səmədovun və onunla birlikdə həbs olunan 6 nəfərin məhkəməsinə hazırlıq iclası məhkəmə salonunda əyləşmiş dindarların ucadan səsləndirilən təkbirləri ilə başladı.

Məhkəmə qarşısına çıxarılan Firdovsi Məmmədrzayev partiya sədrinin qayını, Dəyanət Səmədov qardaşı oğlu, Vaqif Abdullayev sədr müavini, Rufulla Axundzadə partiyanın Astara rayon təşkilatının sədri, Fəramiz Abbasovla Zülfiqar Mikayılov partiya üzvləridirlər. Müttəhimlərdən 6 nəfər həbsdə, 1 nəfər - Zülfiqar Mikayılov ev dustağı olaraq zamindədir. Məhkəməni izləməyə gələnlər bir neçə jurnalist, AİB üzvləri və təqsirləndirilənlərin qohumlarından ibarət idi.

Müttəhimlər kürsüsündə əyləşənlər terrorçuluğa hazırlıqda, qanunsuz odlu silah və onun hissələrini əldə edib saxlamaqda və hakimiyyəti zorla ələ keçirməyə yönəlmiş hərəkətlərdə təqsirləndirilirlər. Ancaq onlar özlərini təqsirli bilmirlər. Hakim Mövsüm Səmədovun anket məlumatlarını elan etdikdən sonra digər müttəhimlərə keçdi.

Hakim:

*- Abdullayev Vaqif, qalxın.*

Vaqif Abdullayev:

*- Hal-hazırda Azərbaycan İslam Partiyasının sədr müaviniyəm.*

Hakim:

*- Aydındır. Qeydiyyatdan keçməyən partiyanın.*

Vaqif Abdullayev:

- Qeydiyyatdan keçməyən deyəndə ki, bu dəqiqə bizim sənədlər Ədliyyə Nazirliyindədir, tutulmağıma bir həftə qalmış da getmişəm...

**«İSLAM PARTİYASI XALQIN QƏLBİNDƏ QEYDİYYATDADI»**

Mövsüm Səmədov müdaxilə edir:

- Qeydə alınmasına ehtiyac yoxdur, Azərbaycan İslam Partiyası kökündən qeydiyyatdadır bu xalqın qəlbində.

Hakim:

*- Səmədov, yerinizdən danışmayın, sakit olun.*

Vaqif Abdullayev:

- Yanvarın 7-də tutub apardılar ki, bizə qarşı müqavimət göstərmisiniz. Mən də demişəm ki, bizim heç bir təqsirimiz yoxdur, mənə inzibati qaydada 10 sutka verdilər. Cəzanı bitirməyə 1 saat qalmış gəldilər apardılar Nəsimi Məhkəməsinə. Mən də Hacı Mövsüm kimi tələb edirəm ki, bizim heç bir təqsirimiz olmadığına görə işimizə xitam versinlər.

**PARTİYA SƏDRİ DƏMİR BARMAQLIQDAN ÇIXMAQ İSTƏMƏDİ**

Mövsüm Səmədovun vəkili Anar Qasımov vəsatət qaldırdı ki, təqsirləndirilənlər dəmir barmaqlıqlardan kənarda oturdulsunlar. Ancaq Mövsüm Səmədov və daha bir neçə dustaq vəsatətə etiraz etdiyinə görə vəsatət təmin olunmadı. Sonra vəkil ikinci vəsatətini elan etməyə başladı. O dedi ki, Mövsüm Səmədov bu il yanvarın 2-də partiyanın mənzil-qərargahında keçirilən toplantıda hicab qadağası ilə bağlı çıxışına görə həbs olunub. Müdafiə etdiyi Səmədov barəsində açılan cinayət işində heç bir sübut yoxdur. Ancaq məhkəmə vəsatətə münasibət bildirə bilmədi. Çünki zamində olan Zülfüqar Mikayılovun dövlət təyinatlı vəkili Gülşən Salmanova iş materialları ilə tanış olmadığını bildirdi. Hakim vəkilin iş materialları ilə tanış olması üçün hazırlıq iclasını iyulun 14-dək təxirə saldı.

Bundan sonra məhkəmə salonunda olan dindarlar yenə də ucadan «Allahuəkbər» və müxtəlif təkbirlər səsləndirməyə başladılar.

***Esmira Cavadova***



Nemət Pənahlı

# Nemət Pənahlı iyulun 2-dən aclıq aksiyası keçirir

**Azərbaycan Milli Dövlətçilik Partiyasının (AMDP) həbsdəki sədri Nemət Pənahlı bir həftədən artıqdır aclıq aksiyası keçirir. Bu barədə AzadlıqRadiosuna onun qardaşı Səməd Pənahlı məlumat verib. O, N.Pənahlıya həbsxanada işgəncə verildiyini iddia edir: «Vəkili bu gün onunla görüşüb, məlum olub ki, o, ayın 2-dən aclıq edir. Həbsxananın rəisi Nemət bəyi döyüb, orda onun bir nəfər əlaltısı da var, hər gün orda ona işgəncə verir».**

Vəkil Samir İsayev isə bildirib ki, artıq təcridxana rəhbərliyi N. Pənahlının aclıq etdiyini qeydiyyata alıb: «Aclıq aksiyası keçirməsinin səbəbi ona qarşı psixi təzyiq, ayrı-seçkilik və hüquqlarının tapdanmasıdır. Dediyinə görə, daim alçaldırlar, əsassız karserə salırlar, həkim müayinəsi təyin etmirlər. N. Pənahlı ictimaiyyət məlumatlandırılandan, Ombudsman və hüquq müdafiəçiləri ilə görüşdən sonra aclığı dayandıra biləcəyini deyib».

Ədliyyə Nazirliyi Penitensiar Xidməti mətbuat xidmətinin rəhbəri Mehman Sadıqov isə N.Pənahlıya həbsxanada işgəncə verildiyini təkzib edir:«Onu heç kim döyməyib, heç bir təzyiq də yoxdur. Amma aclıq edirsə, aclığın səbəbi olmalıdır. Bu səbəbləri elan edərək aclıq aksiyası keçirirsə, bu, onun hüququdur. Qanunvericiliyə uyğun olaraq digər məhkumlardan təcrid olunacaq və həkim nəzarəti altına götürüləcək».

***Sevinc Hüseynzadə***

# Cənubda korrupsiya ilə mübarizə korrupsiyaya uğrayıb



Amil Məlikov

**«Daşınmaz əmlakımı sənədləşdirmək üçün məndən 167 manat tələb etdilər. Bunun 85 manatını banka ödəmişəm. Deyirlər ki, 85 manat rüsumdur, 82 manat xidmət haqqı. İki ayın pensiyasını verməli olacağam». Bunu Astara şəhər sakini Amil Məlikov deyir. O, qeyd edir ki, yaşadığı ev 60-cı illərdə tikilib, ata evidir. Həyətyanı sahəsi də atasından ona qalıb:**

**«ŞİKAYƏT ETDİM, NƏTİCƏSİ OLMADI»**

«Bizdən tələb olunan pul çoxdur. Şikayət etdim, lakin nəticəsi olmadı. Pensiyanı alanda qalan pulu ödəməli olacağam». Adının çəkilməsini istəməyən digər Astara şəhər sakini isə bildirir ki, 6 sot həyətyanı torpağı sənədləşdirmək üçün Daşınmaz Əmlakın Reyestri Xidmətinin Lənkəran ərazi idarəsinin rayondakı nümayəndəliyinə müraciət edib. Deməsinə görə, orada ona bildiriblər ki, «Kapitalbank»a 80 manat rüsum, 48 manat xidmət haqqı ödə.

Daşınmaz Əmlakın Reyestri Xidmətinin Lənkəran ərazi idarəsinin Astara nümayəndəliyində isə bizə bildirdilər ki, bütün ödəmələr qanunla həyata keçirilir. Ödənilən məbləğ «Dövlət rüsumu haqqında» qanununda nəzərdə tutulub. Həmin qanunda deyilir ki, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışın verilməsi üçün 30 manat, daşınmaz əmlaka dair texniki sənədlər üçün isə 50 manat ödənməlidir. Xidmət haqqı burda nəzərdə tutulmayıb. Belə məlum olur ki, Amil Məlikovdan rüsum haqqı kimi 5 manat da artıq pul tutublar.

*Daşınmaz Əmlakın Reyestri Xidmətinin Lənkəran ərazi idarəsinin rəisi Nazim Məmmədov isə rüsum və xidmət haqlarının bank vasitəsilə dövlətə ödənildiyini deyir:* «Dövlətin qanunu var. O qanunla da işləyirik. Rüsumların ödənilməsi də qanunla tənzimlənir».

**«RÜŞVƏTƏ GÖRƏ RAYONDA HEÇ KİM CƏZALANDIRILMAYIB»**

*Lənkəranda fəaliyyət göstərən Cənub Regional Araşdırmalar Mərkəzinin təsisçisi Yadigar Sadıqov rayonlarda korrupsiyaya qarşı mübarizə aparılmadığını deyir. O bildirir ki, rüşvətə görə rayonda heç kim cəzalandırılmayıb və işdən çıxarılmayıb:* «Hansısa təşkilatda guya rüşvət azaldılıb. Kampaniya başa çatandan sonra hər şey əvvəlki vəziyyətinə qayıtdı. Korrupsiyaya qarşı mübarizə korrupsiyaya uğrayıb».



Yadigar Sadıqov

***Müstəcab Məmmədov***

# 3 yol polisi korrupsiya halına görə işdən qovulub




**Oğuz Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin üç əməkdaşı korrupsiya faktı ilə əlaqədar işdən qovulub. Daxili İşlər Nazirliyi mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov APA-nın sorğusuna cavabında faktı təsdiqləyib. DYP əməkdaşlarının işdən çıxarılmasının səbəblərinə gəldikdə, E.Zahidov bildirib ki, korrupsiyaya qarşı mübarizə ilə əlaqədar bu ilin yanvarında Daxili İşlər Nazirliyində Tədbirlər Planı hazırlanaraq daxili işlər naziri, general polkovnik Ramil Usubovun göstərişi ilə icraya yönəldilib: «Bu sənəddə xidməti fəaliyyətdə vəzifə səlahiyyətlərindən sui-istifadə və korrupsiyaya şərait yaradan halların tam aradan qaldırılması, bu sahəyə nəzarətin daha da gücləndirilməsi haqda konkret tapşırıqlar var. Qeyd olunan Tədbirlər Planının icrası ilə əlaqədar mütəmadi olaraq əməliyyat tədbirləri həyata keçirilir».**

**2 LEYTENANT, 1 POLİS KAPİTANI İŞDƏN AZAD EDİLİB**

Belə bir tədbir keçirilən zaman Oğuz rayonu ərazisində «Mercedes» markalı avtomaşın sürət həddini aşdığına görə həmin ərazidə xidmət aparan Oğuz Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları - polis leytenantı Əli Quliyev və polis serjantı Pərviz Həsrətov tərəfindən saxlanılması müşahidə edilib. Pərviz Həsrətov sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin 151.1-ci maddəsi ilə tədbir görülməməsi üçün danışıqlar apardıqdan sonra qayda pozuntusunu rəsmiləşdirmədən avtomaşını buraxıb. Həmin vaxt ora gələn DYPB-nin baş inspektoru, polis kapitanı Rövşən Əhmədov da qeyd edilənləri bilsə də, heç bir tədbir görməyib.

Bununla əlaqədar aparılan xidməti təhqiqat zamanı Oğuz RPŞ-nin Yol Patrul Xidməti əməkdaşlarının qanunsuz hərəkətləri tam sübut olunub. Daxili işlər naziri Ramil Usubovun iyulun 4-də imzaladığı əmrə əsasən, onların hər üçü tutduqları vəzifədən azad ediliblər.

E. Zahidov həmçinin bildirib ki, bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. İyunun 20-də Baş Dövlət Yol Polisi İdarəsi Yol Patrul Xidməti Alayının 13 əməkdaşı işindən uzaqlaşdırılıb, 1 taqım komandiri tutduğu vəzifədən azad edilib, alayın 4 vəzifəli şəxsi barəsində isə ciddi intizam tədbirləri görülüb.

**Gizlinləri AzadliqRadiosu.az saytından oxuyun.**
**AzadlıqRadiosunun daimi verilişlərindən biri:**



# «Dedilər burdan prezident keçəcək, ev sökülməlidir»


Arxiv foto. 06.07.2011

**«AXŞAM GƏLDİLƏR DEDİLƏR, YIĞIŞ, SƏHƏR EVİN SÖKÜLƏCƏK»**

Bakının Akademik Həsən Əliyev küçəsindəki 127 saylı evin 38-ci mənzilinin sahibi olan Məcid Yusifov «Qaynar xətt»ə şəxsi mülkiyyətində olan evinin qanunsuz söküldüyünü deyib. Onun sözlərinə görə, bir neçə gün əvvəl Nərimanov Rayon İcra Hakimiyyətinin işçiləri qəflətən onun yaşadığı evə gələrək əşyalarını yığışdırmağı tapşırıblar və deyiblər ki, sabah səhər ev sökülək. Növbəti gün səhər Məcid Yusifovun yaşadığı evin qaşısına ağır texnika gətirilib və söküntü işlərinə başlanılıb:

- 23 ildən artıqdır ki, bu evdə yaşayırıq. Əvvəl evimin sahəsi 17 kv.m idi. 2003-cü ildə məhkəmənin qərarı ilə 41 kv.m əlavə tikintiyə icazə verilib. Evin 38 kv.m sahəsi olan zirzəmisinə görə isə mənimlə 2019-cu ilədək müqavilə bağlanıb və buna görə pul ödəmişəm.

**- Buna qədər sizə xəbərdarlıq olunmuşdu?**

- Bircə dəfə də xəbərdarlıq olunmamışdı. Bundan başqa, mənim evimin artırması qanunidir və əgər sökülürdüsə də, məhkəmə qərarı ilə sökülməli idi. Mənə dəymiş zərəri hesablamayıblar, kompensasiya ödəməyiblər. Evin artırılmış hissəsini söküblər, təkcə sahəsi 17 kv.m olan 1 otağı saxlayıblar. Evin tikilməsinə, təmirinə, zirzəminin, qarajın təmirinə, bu boyda mülkün sənədləşdirilməsinə 200 min manata qədər xərc çəkmişəm. Mənim pulumu kim ödəyəcək. Bir az da danışanda, deyirlər çox danışırsan, sənə heç nə verməyəcəyik. Biz dərdimizi kimə deyək? Bir günün içində həmin evdə yaşayan oğlumun ailəsini töküblər çölə, bu ailə hara getməlidir?

**«HÖKUMƏTLƏ HÖKUMƏTLİK ETMƏK FİKRİM YOXDUR, AMMA....»**

**- Evin artırmasını niyə söküblər? Sizə nə səbəb göstərdilər?**

- İcra hakimiyyətindən dedilər ki, prezident buralardan keçəcək, burda binaları üzləyirlər, sənin evin də sökülməlidir. Mənim hökumətlə hökumətlik etmək fikrim yoxdur, sökür, əcəb eləyir, ancaq bu o demək deyil ki, mənim mülkiyyət hüquqlarımı pozmalıdılar. Özüm YAP üzvüyəm, Qarabağ veteranıyam, uzun illər dövlət işində işləmişəm, dövlət belə qayğı göstərir mənə? Mənim illərlə yığdığım pulları bir gündə darmadağın etdilər. Mən təzədən o pulları necə qazanmalıyam ki, ev tikim?

**İCRA HAKİMİYYƏTİ DEYİR Kİ...**

Nərimanov Rayon İcra Hakimiyyətindən AzadlıqRadiosuna dedilər ki, Bakı şəhərinin baş planına uyğun olaraq Koroğlu Rəhimov küçəsinin yenidən qurulması ilə əlaqədar inşa ediləcək binada evləri köçürülən sakinlərə evlərinin müqabilində mənzillər və qeyri-yaşayış sahələri üçün isə 1-ci mərtəbədə qeyri-yaşayış sahəsi ilə təmin olunurlar. «Araz – 2011» məhdud məsuliyyətli cəmiyyəti mənzili sökülən Məcid Yusifovla da iyunun 28-də müqavilə bağlayıb. O, Orucəliyev küçəsi 22-də tikilməsi nəzərdə tutulan 5 mərtəbəli binada 1 otaqlı mənzillə təmin olunacaq.

Əvvəlcə evin artırmasını və zirzəmini boşaltdıran Nərimanov Rayon İcra Hakimiyyətinin işçiləri indi Məcid Yusifovdan qarajı da boşaltmasını tələb edir. Məcid Yusifov deyir ki, qarajı 35 min manata alıb və sənədlə ona məxsusdur...

***Esmira Cavadova***

**Qaynar Xətt**

**Şikayətinizi, problemlərinizi AzadlıqRadiosunun "Qaynar Xətt"inə söyləyin:**
**Telefon: 436-77-41, SMS: (+99450) 744-10-17**
**E-mail: efir@azadliqradiosu.az, azadliq@rferl.org**

# Abid Şərifov: "Bakının dörd bir yanı minalanıb"

*"Sovet ordusu Azərbaycanı tərk edərkən çox şeylər qoyub gedib. Bunlar minalı, döyüş sursatları olan sahələrdir". APA-nın məlumatına görə, bunu baş nazirin müavini Abid Şərifov "Azərbaycanda partlamamış hərbi sursatların təmizlənməsi üzrə Saloğlu layihəsi"nin bağlanış mərasimində deyib.*

"Bakının dörd bir yanı minalanıb. Elə götürək Qaradağ rayonunu. Orada partladılmış hərbi bazanın ərazisində nə qədər sursat var", - deyə A. Şərifov vurğulayıb. Baş nazirin müavini onu da qeyd edib ki, bu gün Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ən müasir avadanlıq və texnikalardan, həmçinin işçilərin təcrübəsindən istifadə edərək bu problemin aradan qaldırılmasına çalışır.



# 50-dək «reket qəzet» «Azərbaycan» Nəşriyyatından çıxarılıb

Dövlət tərəfindən ildə iki dəfə yardım olunmasına baxmayaraq, hələ də bir çox qəzet «Azərbaycan» Nəşriyyatına olan borcunu ödəmir. Bu barədə «Azərbaycan» Nəşriyyatının direktoru Ağabəy Əsgərov bildirib.

A. Əsgərov «reket qəzet»lərin nəşriyyatın binasından çıxarıldığını da bildirib. Bu il nəşriyyatdan təxminən 50-yə qədər belə qəzet çıxarılıb: ««Reket qəzet»lərin hamısı nəşriyyatda yerləşmir. Hər dəfə Mətbuat Şurasının siyahısı yeniləndikcə, siyahıya düşmüş qəzetləri nəşriyyatdan çıxarırıq».

***APA***

# Призывы Алиева



Ильхам Алиев, Баку, 27 мая 2011

*Президент Азербайджана Ильхам Алиеввыступил во вторник на проходящем в Баку Третьем съезде азербайджанцев мира. Он заявил, что диаспорские организации Азербайджана за рубежом "полностью сформировались", за последние 5 лет их число увеличилось с 336 до 416. В то же время, по его словам, улучшилось и качество их деятельности, которая стала "более целенаправленной и эффективной".*

Главной задачей диаспоры Алиев назвал необходимость ее единства и объединения азербайджанских общин в странах проживания: "Идеальный вариант, чтобы каждый азербайджанец стал членом диаспорской организации, поддерживая ее своей деятельностью и получая от нее при необходимости помощь. Для этого организации должны быть сильными, что может обеспечить лишь единство внутри них».

Еще одним важным направлением работы диаспорских организаций он назвал «усиление их связей с посольствами Азербайджана»: "Диаспорские организации и посольства должны работать как единая команда. Мы должны довести до мира азербайджанские реалии, должны преподнести себя миру такими, какие мы есть".

Алиев убежден, что диаспорские организации азербайджанцев "должны стать фактором внутренней политики стран проживания": "Настало уже время для этого. Наши соотечественники должны быть представлены в государственных, правительственных и законодательных органах стран проживания. Считаю, что это реально. Для этого они должны быть сплоченными, должны помогать и поддерживать друг друга".

# Цвет лица диктатора



Али Абдалла Салех, Рияд, 7 июля 2011

Международные СМИ пишут о первом после обстрела президентского дворца месяц назад выступлении по телевидению президента Йемена Али Абдаллы Салеха. Тогда, сразу после инцидента сообщалось, что горячо любимый народом президент был легко ранен. В подтверждение этих слов, Салех тогда выступил с коротким аудиообращением к своему народу через 6 часов после того, как был ранен. Наверное, шесть часов понадобилось, чтобы собраться с силами после легкого ранения.

7 июля на видеопленке, снятой предположительно в Саудовской Аравии, где глава Йемена проходит лечение, видно, что он все еще залечивает полученные во время падения на его резиденцию ожоги: с трудом произносит слова, не может двигать руками. Но это еще что...

Салех отметил, что перенес 8 хирургических операций. Целых восемь! Представитель его канцелярии сообщил, что понадобиться еще несколько месяцев, чтобы президент мог вернуться к своим обязанностям по управлению государством. Это еще учитывая, что оппозиция и большое число митингующих йеменцев категорически против его возвращения.

...Да, чуть не забыл сказать – после этого легкого ранения уважаемый президент стал похож цветом лица на бедуина, который пасет верблюдов и жарится весь день под солнцем благородной Аравии. Интересно, что еще надо, до какого колорита надо дойти, чтобы понять, что творится в твоей стране и уйти в отставку хотя бы на этой стадии? Пример Бен Али и Мубарака, видимо, Али Абдалла муаллима ничему не научил.

***Чингиз Султансой***



Сергей Лавров

# "Пас" России

Глава МИД России Сергей Лавровпередал президенту Азербайджана Ильхаму Алиеву предложения президента России Дмитрия Медведевапо урегулированию в Нагорном Карабахе, передает ИТАР-ТАСС.

Лавров, обращаясь к Алиеву сказал: «Уважаемый Ильхам Гейдарович,Хотел бы передать самые теплые приветы от Дмитрия Анатольевича Медведева. По итогам состоявшейся в Казани дискуссии Президент России подготовил послание Вам и Сержу Саркисяну с предложениями о видении решения нагорно-карабахского вопроса, который обсуждался в последнее время в формате трех президентов и с участием представителей сопредседателей Минской группы ОБСЕ – России, США и Франции...»

# Почему "Video International" ушел из Азербайджана?

*Группе Video International не удалось стать влиятельным игроком вАзербайджане, пишет в номере от 7 июля российский «Коммерсант». Группа прекратила работать в Азербайджане. В Азербайджане Video International работал с 2006 года, обслуживая всего лишь один телеканал - "Лидер ТВ". Представитель Video International Елизавета Свиридова объяснила газете уход из Азербайджана "стратегией зарубежного развития": группа сосредотачивается на тех рынках, где у нее "есть перспективы расширения клиентской базы и диверсификации селлерского бизнеса".*

*Агентство ZenithOptimedia в своем последнем отчете оценивает затраты на телерекламу в Азербайджане в 2010 году в $53 млн. Это восьмой показатель среди 10 постсоветских стран.Для сравнения: объем российского телерекламного рынка - $4,118 млрд, украинского - $356 млн, грузинского – $116,3 млн, армянского – $69 млн.*

# «Rusiya Azərbaycanın xeyrinə heç bir şey etməyəcək»

**Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov iyulun 8-də Azərbaycana gəlib. O, Rusiya prezidenti Dmitri Medvedevin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı şəxsi məktubunu Azərbaycan prezidentinə çatdırıb. Yerli medianın məlumatına görə, iyulun 8-də məktubu İlham Əliyevə təqdim edən Sergey Lavrov deyib ki, Rusiya ümid edir ki, Azərbaycan tərəfi Dmitri Medvedevin Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı şəxsi məktubunda öz əksini tapmış ideyalara reaksiya verəcək.**

### «AZƏRBAYCANIN XEYRİNƏ RUSİYA ÖMRÜNDƏ HEÇ BİR ŞEY ETMƏYƏCƏK»

Politoloq Zərdüşt Əlizadə Rusiya prezidentindən gələn təkliflərlə tanış olmasa da, Medvedevin azərbaycanlı və ermənistanlı həmkarlarına ünvanladığı məktubda Dağlıq Qarabağla bağlı hansısa yeni bir təklifin olmasına inanmır. Zərdüşt Əlizadəyə görə, hadisələrin gedişatı onu göstərir ki, Rusiya var gücü ilə Cənubi Qafqazı öz əlində saxlamaq



Zərdüşt Əlizadə

üçün səmərəli vasitəyə malik olmaq istəyir:

«Bu vasitəni yaşatmaq üçün müxtəlif təkliflər icad edirlər. Rusiya çalışır ki, hərbi-siyasi, bəşəri kəşfiyyat mövcudluğunu Cənubi Qafqazda saxlasın. Ona görə də mən Azərbaycan üçün, qaçqınların öz torpaqlarına qayıtması üçün Rusiyadan hər hansı səmərəli təklif gözləmirəm. Görünür son görüşdə hansısa məsələ ilə bağlı İlham Əliyevi razı salmaq istəyiblər və bu alınmayıb. Digər tərəfdən də Rusiyaya görüntü yaratmaq lazımdır ki, güya çalışır, nə isə etmək istəyir. Amma Azərbaycanın xeyrinə Rusiya ömründə heç bir şey etməyəcək».

### RUSİYADAN TƏZYİQ OLA BİLƏR

Elxan Şahinoğlu Medvedevin Kazan görüşündən sonra təkliflər hazırlamasını da təsadüfi saymır. O, hesab edir ki, Rusiyada prezident seçkiləri yaxınlaşdıqca Medvedev çalışır ki, onun vasitəçiliyi ilə keçiriləcək növbəti görüş nəticəsiz olmasın. Politoloqa görə, hətta bu ərəfədə tərəflər Rusiyanın təzyiqi ilə də üzləşə bilərlər.


Elxan Şahinoğlu

Ermənistanda Sergey Lavrovla görüşündə Ermənistan prezidenti Serj Sarkisyan deyib ki, onlar Medvedevin təkliflərini diqqətlə öyrənəcək və tezliklə cavablarını verəcəklər.

***Maarif Çingizoğlu***

# İnternetə girişi məhdudlaşdıran şərtlər


Arxiv foto

**İyulun 8-də ATƏT-in «İnternetdə Fikir Azadlığı» adlı yeni hesabatı dərc olunub. Hesabatda yer almış məlumatlar ATƏT-ə üzv dövlətlərdən, o cümlədən müstəqil mənbələrdən, sorğulardan əldə edilmiş bilgilərə əsaslanır. Sənədə dövlətlərə ünvanlanmış internetlə bağlı suallara verilmiş rəsmi cavablar salınıb. Məsələn, suallardan birində soruşulur ki, dövlətlər istifadəçilərin internetə giriş imkanlarını məhdudlaşdıran hər hansı bir hüquqi şərtlərə malikdirlərmi? 39 ölkənin «yox» deyə cavab verdiyi bu suala 7 ölkənin, o cümlədən Azərbaycanın cavabı belə olub ki, onlarda belə bir hüquqi şərt var.**

### UŞAQ PORNOQRAFİYASI VƏ İNTERNET

Digər sual belə olub ki, uşaq pornoqrafiyasını kriminallaşdıran hər hansı hüquqi ehtiyat tədbirləri varmı? Dövlətlərin böyük əksəriyyəti – 77 faizə yaxını bildirib ki, bunu nəzərdə tutan qanun qəbul ediblər. Cəmi 3 ölkənin cavabı neqativ olub, onlardan biri Azərbaycan, digəri ikisi isə Qırğızıstan və Türkmənistandır.

Hesabatda o da qeyd olunur ki, Azərbaycanda həqiqətə uyğun olmayan və kiminsə şərəf və ləyaqətini alçaldan, onun ictimai nüfuzuna zərər gətirən məlumatları yaymağa görə cərimə nəzərdə tutulub, buna görə hətta 240 saatlıq həbsdən tutmuş, bir illik şərti cəza və ya 6 aylıq həbs cəzası da kəsilə bilər. Yerli qanunvericiliyə görə, internet də kütləvi informasiya vasitəsinin bir qolu hesab olunduğundan eyni cərimə və cəza internetlə də yayılmış məlumatlar üçün keçərlidir.

Üzv ölkələrdən həm də soruşulub ki, «YouTube», «Facebook», «Blogger» kimi yeni media hesab olunan internet saytlara girişi bloklaşdıran hər hansı qanuni şərtə malikdirlərmi? Dövlətlərdən yalnız İtaliya bu suala müsbət cavab verib. 44 dövlət mənfi cavab verib – Albaniya, Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Latviya, Norveç və Polşa hökumətləri açıq-aşkar elan ediblər ki, yeni medianı bloklaşdıran heç bir şərt irəli sürmürlər.

Sənəddə Azərbaycanla bağlı o da qeyd olunur ki, bu ölkədə kitabxana və internet kafelərdə filtr və ya proqram təminatını bloklaşdıran hər hansı qanuni tələb yoxdur. «Freedom House» beynəlxalq hüquq müdafiə təşkilatı isə bu ilin əvvəlində yaydığı hesabatda Azərbaycanı internet üzrə «qismən azad» ölkələr sırasında göstərib. Hesabatda həmçinin Azərbaycanın internet məkanında inhisarçılığın olması da qeyd edilir.

Azərbaycan rəsmiləri ölkədə internetin tam azad olduğunu hər fürsətdə qeyd edirlər. Prezident İlham Əliyev elə bu günlərdə Dünya Azərbaycanlılarının III Qurultayında bir daha bəyan edib ki, Azərbaycanda internet tam azaddır.

***Ülkər Akifqızı***

# Bakı avtovağzalının sahibi Vircin adalarından çıxdı



Namiq Həsənov

**Nazirlik prezidentə bir söz deyir, jurnalistlərə başqa söz...**

Bakı Beynəlxalq Avtovağzal Kompleksinin kimə məxsus olması barədə suallar isə uzun zaman cavabsız qalıb. Bir neçə ildir ictimaiyyət, eləcə də aparıcı ekspertlər zənn edirdi ki, bu avtovağzal kompleksi dövlət vəsaiti hesabına inşa edilib və dövlət mülkiyyətidir. "2009-2013-cü illərdə regionların sosial və iqtisadi inkişafı dövlət proqramı"nda və digər rəsmi sənədlərdə Bakı Beynəlxalq Avtovağzal Kompleksinin Nəqliyyat Nazirliyinin sifarişi ilə inşa edildiyi bildirilir. Hətta açılış mərasimində nazir Ziya Məmmədov özü prezident İlham Əliyevə bu Kompleksi təqdim edib. O, bildirib ki, Kompleks Nazirliyin sifarişi ilə, baş podratçı "Bakı XXI Əsr" MMC tərəfindən inşa edilib.

Ancaq Nəqliyyat Nazirliyinin sözçüsü Namiq Həsənov sonradan bizə müsahibəsində sifarişçinin "Bakı XXI Əsr" MMC-nin özü olduğunu bildirdi. Bu barədə bir qədər sonra.

### AVTOVAĞZAL KİMİN PULUNA TİKİLİB?

Maliyyə və Nəqliyyat nazirlikləri AzadlıqRadiosuna bildirib ki, Bakı Beynəlxalq Avtovağzal Kompleksinin inşasına dövlət büdcəsindən pul ayrılmayıb. Hər iki nazirlikdə kompleksin hansı vəsait hesabına tikildiyi barədə məlumat ictimaiyyətə açıqlanmır.

Vergilər Nazirliyindən aldığımız məlumata görə, "Bakı XXI Əsr" MMC-nin təsisçisi Böyük Britaniyanın Vircin adalarındakı "Trans European Leasing Group" LTD-dir. "Bakı XXI Əsr" MMC Azərbaycanda 2004-cü ilin martında qeydiyyatdan keçib, təsisçilər barədə ictimaiyyətə məlumat verilmir. Vircin adaları dünyada mövcud olan OFF-SHORE (ofşor) zonalardan biridir.

Ofşor – vergidən tamamilə azad olunmuş və nəzarəti zəif olan zonalardır.

### KOMPLEKSİ İKİ AYLIQ ŞİRKƏT TİKİB...

"Bakı XXI Əsr" MMC qeydiyyatından cəmi iki ay sonra, yəni 2004-cü ilin mayında Avtovağzalın inşasına başlayıb. İki ay kifayət edib ki, dövlət qurumlarından strateji obyektin tikintisinə nəinki razılıq, hətta yer də verilsin. Halbuki "Dövlət Satınalmaları haqqında", qanuna əsasən, tender keçirilərdisə, bu şirkətdən həmin sahədə 5 il iş təcrübəsi tələb olunacaqdı.

Nəqliyyat Nazirliyinin sözçüsü Namiq Həsənov da razılaşır ki, əsas şirkətin təcrübəsidir. Onun sözlərinə görə, bu şirkət özü təşəbbüs göstərdiyindən və büdcədən maliyyə istəmədiyindən tender keçirilməyib: "Hər halda görülən iş də göz qabağındadır. Dünyada analoqu olmayan bir işdir. Kimin tikməsindən və istifadə etməsindən asılı olmayaraq, xaricdən gələn qonaqlar özləri təəccüblənirlər ki, Azərbaycanda belə bir kompleks var".

***British Virgin Islands Registry of Corporate Affairs Search***

| | |
|---|---|
| Client Reference # | None |
| Company Name | Trans-European Leasing Group Ltd. |
| Company Type & Registered Number | BVI BC 552364 |
| Incorporation Date | 14-Jul-03 by Commonwealth Trust Limited |
| Re-registration Date | N/A |
| Current Registered Agent | Lotus Corporate Services |
| Registered Office | 147, Main Street, P.O. Box 3860, Road Town, Tortola, British Virgin Islands |
| Authorised Share Capital | USD 50,000.00 |
| Share Structure & Type | 50,000 shares of $1.00 ea, Registered or Bearer |
| Current Status | There is nothing on file to indicate that the Company is not in good standing |
| License Fee Last Paid | 27-Sep-10 for 2010 |
| Previous Name | Nothing on File |
| Name Change Filed | N/A |
| Change Registered Agent/Office | Commonwealth Trust Limited, 27-Aug-09 |
| Register of Directors | Nothing on file |
| Register of Shareholders | Nothing on File |
| Mortgages & Charges | Nothing on File |
| Special Resolutions | Nothing on File |
| Other Notes | |
| Search Date | 09-May-11 by AHJ |

### VİRCİN ADALARINDAN MƏKTUB

Böyük Britaniyanın Vircin adalarında şirkətlərin qeydiyyatını aparan qurumdan (British Virgin İslands Registry of Corporate Affairs Search) isə öyrəndik ki, "Trans European Leasing Group" LTD - yəni "Bakı XXI Əsr" MMC-nin təsisçisi 2003-cü il iyulun 14-də qeydiyyata alınıb. AzadlıqRadiosuna verilən məlumata görə, şirkət qeydiyyatdan keçərkən nə hüquqi şəxsin, nə də təsisçilərinin adı göstərilib.

Nəqliyyat Nazirliyi "Bakı XXI Əsr" MMC ilə heç bir əlaqəsi olmadığını bildirsə də, bu şirkətə ünvanladığımız suallara nazirlik vasitəsilə cavab aldıq. Həmin cavabda bildirilirdi: "Bakı Beynəlxalq Avtovağzal Kompleksinin tikintisi üçün Nəqliyyat Nazirliyi ilə heç bir müqavilə bağlanmayıb. Tikintiyə Bakı Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı əsasında torpaq sahəsi ayrılıb".

Amma torpaq sahəsi də boş olmayıb. 2009-cu ildə 1 saylı İqtisad Məhkəməsi Türkiyənin "Lüks Sönməz" şirkətinin "Bakı XXI Əsr" MMC-yə qarşı iddiasına baxıb. İddiada "Lüks Sönməz" şirkətinə məxsus yeni avtovağzal ərazisindəki bazar qiymətlərinə görə, təxminən 7 milyon manat dəyəri olan 50 sotluq torpaq sahəsindən "Bakı XXI Əsr" MMC-nin icazəsiz istifadə etməsi göstərilib.

Avtovağzalın ümumi sahəsi isə 3,7 hektardır. Belə çıxır ki, təkcə avtovağzal kompleksinin torpaq sahəsini almaq "Bakı XXI Əsr" MMC-yə təxminən 50 milyon manata başa gəlib. Nə Nəqliyyat Nazirliyi, nə Vergilər Nazirliyi, nə də digər dövlət qurumları "Bakı XXI Əsr" MMC-nin təsisçisi haqda məlumat vermədi.

### NAZİRİN DEPUTAT QARDAŞININ 80 MİLYON ABŞ DOLLARI?

Ancaq AzadlıqRadiosunun apardığı araşdırmada isə "Bakı XXI Əsr" MMC- ni Nəqliyyat Nazirinin qardaşı Elton Məmmədovun təsis etməsi üzə çıxırdı. Əslində avtovağzalın inşa edildiyi ərazi ilə bağlı məhkəmə çəkişmələrində də cavabdeh qismində Elton Məmmədovun adı



Elton Məmmədov

dəfələrlə hallanmışdı. Bunu dəqiqləşdirmək üçün deputat Elton Məmmədovla əlaqə saxladıq.

***(davamı 10-cu səhifədə )***

# Bakı avtovağzalının sahibi Vircin adalarından çıxdı



Bakı Beynəlxalq Avtovağzal Kompleksinin maketi

*(əvvəli 9-cu səhifədə)*

**Elton Məmmədov "Bakı XXI Əsr"in təsisçisi olduğunu AzadlıqRadiosuna təsdiqlədi: "Mən bir millət vəkili kimi kommersiya fəaliyyəti ilə məşğul ola bilmərəm. Amma mənim hansısa bir şirkət təsis etməyimdə heç bir problem yoxdur.**

**- Bəs, niyə bu şirkəti xaricdə, özü də Vircin adalarında qeydiyyatdan keçirmisiniz?**

- Burda heç bir problem yoxdur. Beynəlxalq hüquq çərçivəsində şirkət qeydiyyata alınıb.

**- Sizdən başqa təsisçilər varmı? Əgər varsa, kimlərdir?**

- Bəli var, amma bu, kommersiya sirri olduğundan bu barədə heç bir məlumat verə bilmərəm.

**- Kompleksin "Bakı XXI Əsr" MMC-nin vəsaiti hesabına inşa edildiyi bildirilir? Hansı mənbələrdən əldə olunub bu vəsait?**

- Ola bilər ki, təsisçi kənardan özünə sponsorlar tapır, müxtəlif şirkətlərlə əməkdaşlıq edir və işini qurur.

**- Kimlərdir sponsorlar, sizin əməkdaşlıq etdiyiniz şirkətlər?**

- Dövlət sirri haqda və kommersiya sirri haqda qanuna uyğun olaraq mən bu barədə sizə heç bir məlumat verə bilmərəm.

Elton Məmmədov tikintiyə sərf edilən vəsaitin məbləğini kommersiya sirri olduğunu iddia edərək açıqlamır. 2009-cu ildə «Əl-Cəzirə» televiziyası hazırladığı videoreportajda Bakı Beynəlxalq Avtovağzalın tikintisinin 80 milyon ABŞ dollarına başa gəldiyini bildirirdi. Videoreportajda avtovağzalı tikən şirkətin- "ZQAN Holdinq"in isə Nəqliyyat naziri Ziya Məmmədova məxsus olduğu iddia edilirdi. Nəqliyyat Nazirliyi o vaxtlar bu məlumatı təkzib etmişdi. Amma sonradan tikintini aparan şirkətin rəhbəri Nəqliyyat nazirinin oğlu Anar Məmmədovun olduğu rəsmi açıqlandı.

**ATA, OĞUL, ƏMİ VƏ NƏQLİYYAT NAZİRLİYİ...**

İndi belə çıxır ki, avtovağzal kompleksi ata, oğul və əminin müştərək işidir. Yəni, Bakı Beynəlxalq Avtovağzal Kompleksini tikən şirkət (ZQAN Construction) Nəqliyyat nazirinin oğlu Anar Məmmədova məxsusdur, kompleksi idarə edən şirkətin isə ("Bakı XXI Əsr") təsisçisi onun əmisi deputat Elton Məmmədovdur. Nəqliyyat naziri Ziya Məmmədov isə bu beynəlxalq avtovağzala lisenziya verib.

ABŞ-ın təhsil və media layihələri həyata keçirən İREX təşkilatının media üzrə eksperti, hüquqşünas Ələsgər Məmmədli düşünür ki, bu layihənin gerçəkləşməsinə sərf olunan vəsaitin də mənbəyinin açıqlanmamağı ictimaiyyətdə haqlı şübhə doğurur:"Milyonlarla manat pul hər halda Allah tərəfindən göndərilməyib. Yüzdə doxsan doqquz bu qanuni mənbə hesab oluna bilməz, çirkli puldur".

İqtisadçı ekspert Natiq Cəfərli isə deyir ki, korrupsiyadan əldə olunmuş çirkli pulların yuyulması üçün ən sadə yol xarici investisiya adı ilə pulların dövriyyəyə buraxılmasıdır. Onun fikrincə, mənbəyi məlum olmayan pullarla tikilən avtovağzal özü də, deyəsən, qeyri-qanuni gəlir mənbəyinə çevrilib.

**KOMPLEKSDƏ VERGİ GÜZƏŞTİ?**

**- Qəbz verə bilərsiz?**

- Qızım, "çek maşını" qoyublar, amma hələ öyrətməyiblər ki, necə istifadə edim.

**- Neçə müddətdir ki, işləyirsiz?**

- Iki aydır buranı götürmüşük, kassa təzə qoyulub.

Bu cür dialoqu Bakı Beynəlxalq Avtovağzal Kompleksində tez-tez eşidərsiniz. Burda çeksiz bilet satışı, keyfiyyətsiz xidmət və nəzarətsiz gəlirlər barədə media dəfələrlə məlumat yayıb. Kompleksə 1500 mağazadan ibarət ticarət mərkəzi, irili-xırdalı onlarla kafe, 4 ulduzlu "Comfort İNN" oteli, 720 yerlik avto dayanacaq, "Bakı XXI Əsr" MMC adlı yanacaq doldurma, avtoyuma və təmir məntəqələri daxildir. Müşahidə üçün bu kompleksə bir neçə gün müştəri kimi baş çəkdik. Bir çox xidmət obyektlərində vergidən yayınma hallarına şahid olduq.

Ticarət Mərkəzindəki mağazalardan yalnız biri bizə qəbz verdi. Uşaq paltarları mağazasının satıcısı öyünürdü ki, ticarət mərkəzində nümunəvi işləyən bir-iki mağaza varsa, biri də onlarınkıdı. Digər mağazalardan isə bildirdilər ki, alver yaxşı getmədiyindən vergilərdə onlara güzəşt olunur. Vergilər Nazirliyinin analitik informasiya şöbəsindən Şahin Məmmədovun sözlərinə görə, kassa çekinin vurulmaması qanun pozuntusudur və bunu pozanlara heç bir güzəşt yoxdur.

Şahin Məmmədov komleksdən əldə olunan gəlir və dövlət büdcəsinə ödəmələr haqda bunları dedi:"Vergi ödəyicilərinin vergi ödənişlərinin miqdarı, o cümlədən həmin qurumlarda aparılan son yoxlamanın vaxtı barədə məlumat və yoxlama barədə hesabat Vergi Məcəlləsinin 30-cu maddəsinə əsasən kommersiya sirri hesab olunur".



Ziya Məmmədov

Kiçik bir hesablama təkcə ticarət mərkəzindəki mağazaların yer haqqının şirkətə il ərzində təxminən 2 milyon manat gəlir gətirdiyini göstərir. 2008-ci ilin fevralından istifadəyə verilən kompleksdə bir mağazanın şirkətə ödədiyi aylıq yerpulu sahibkarların dediyinə görə, ən azı 102 manatdır. Sahibkarlar bu pulu "Bakı XXI Əsr"in ofisini işarə edərək dövlətə ödədiklərini deyirlər.

WikiLeaks "Kimin nəyi var" silsiləsində Nəqliyyat naziri Ziya Məmmədovun ailəsindən də bəhs edib. Açıqlanan sənədlərdə deyilir ki, Azərbaycanın neft gəlirlərindən çoxu yol tikintisinə axır və bu işlərin çoxunu Məmmədovlar idarə edir. Bundan başqa, sərnişindaşıma sahəsi də ailənin Holdinqlərinin inhisarındadır.

**Yazı Scoop Qafqaz layihəsinin dəstəyi ilə hazırlanıb.**

*Vüsalə Əlibəyli, Nüşabə Fətullayeva*

# Nefti artıq azalan Azərbaycan




**AZƏRBAYCANIN YENİ PLANI**

Bu haqda ilk dəfə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə bu ilin aprelində Bakıda keçirilən beynəlxalq neft-qaz nəqliyyatı konfransı zamanı bəyan etdi. Hazırda ekspertlər səviyyəsində bir layihə hazırlanır ki, yaxın gələcəkdə Azərbaycanın maraqlarını təmin edəcək optimal hasilat həcmləri hansı səviyyədə olmalıdır. Yusifzadənin fikrincə, bu, ildə 50-55 mln ton arasındadır.

Ancaq «Caspian Oil & Gas -2011»də SOCAR prezidenti Rövnəq Abdullayev jurnalistlərə bildirdi ki, ola bilsin, bundan sonra heç 50-51 mln tondan artıq neft hasil etməyək, çünki neftin hasilatının artırılması onun istismar xərclərinin də artırılması deməkdir. Bu baxımdan, iqtisadi səmərə hansı səviyyəyə imkan verəcəksə, o qədər də hasil edəcəyik.

**AZƏRBAYCANDA HASİLAT 49 MİLYONADƏK AZALACAQ**

Son 15 ildə ilk dəfə olaraq Azərbaycanda neft hasilatı 2011-ci ildə aşağı düşəcək. Ancaq narahat olmağa dəyməz, çünki bu, yataqlardakı ehtiyatların tükənməsi deyil, texniki faktorlarla bağlı bir enmədir. Belə ki, bu günlərdə bp şirkəti 1997-ci ildən istismarda olan «Çıraq-1» platformasını ilk dəfə olaraq əsaslı təmirə dayandıracaq. Niyə? Ona görə ki, əvvəllər hesab edilirdi ki, 2010-cu ilədək bu platformalıq bir iş qalmayacaq, yəni onun yerləşdiyi ərazidə neft tükənəcək. 14 illik hasilatdan sonra məlum olur ki, bu platforma gündə 90 min barel, yəni ildə 4.5 mln ton neft hasil edə bilər, özü də nə az, nə çox, hələ düz 10 il. Digər tərəfdən, AÇG-dəki ən iri hasilat platforması olan «Mərkəzi Azəri»də də bir sıra profilaktiki işlərlə əlaqədar (sualtı boru xətlərinin birləşmələrinin dəyişdirilməsi və s.) hasilat dayandırılacaq. Bütün bunlar son nəticədə platformaların təhlükəsizlik məsələlərinin daha da artırılmasına da xidmət edir.

**NƏTİCƏDƏ**

Cari ildə Azərbaycanda neft hasilatı ötən ilki səviyyədən (50.8 mln) təqribən 48 mln-dək aşağı düşəcək. Ancaq gələn ildən hasilat yenidən 50 mln ton ətrafında sabitləşəcək. 2012-2015-ci illərdə Azərbaycanda neft hasilatı 50 mln ton ətrafında bərqərar olmalıdır. Daha sonra 2020-ci ilədək 40 mln tonadək azalmalı, 2025-də 34 mln-a, 2030-da isə 25 mln tona düşməlidir.

Necə deyərlər, AÇG üzrə müqavilə 12 dekabr 2024-cü ildə başa çatır və onun müddəti daha 5 il uzadılandan sonra belə, Azərbaycan neft ixracatçısı kimi qalmalıdır. Bütün bunlar ancaq indiki ehtiyatlar çərçivəsindədir.

***İlham Şaban (Neft Araşdırmaları Mərkəzinin rəhbəri)***

# III qrup üzrə imtahanlarda 70 faiz abituriyent kəsilib

İyulun 6-da III qrup üzrə ali və orta təhsil məktəblərinə qəbul imtahanlarının nəticələri açıqlanıb. Nəticələrə görə, imtahanlarda iştirak edən 30 min 981 abituriyentdən 8 min 981 nəfər müsabiqədə iştirak hüququ qazanıb. Yəni imtahanlarda iştirak edən abituriyentlərin 70 faizdən çoxu müsabiqədə iştirak hüququnu itirib.

**«İMTAHAN SUALLARI HƏDSİZ ÇƏTİN İDİ»**

Abituriyent Aytəkin Hüseynova deyir ki, qəbul imtahanında gözlədiyi nəticəni əldə edə bilməyib. Onun sözlərinə görə, xüsusilə ədəbiyyat və tarix fənlərində çətin, mübahisəli suallar olub: «Mən 600-dən artıq bal toplayacağımı düşünürdüm. Amma tarix, ədəbiyyatdan düşən suallar olduqca çətin idi. Mənimlə birlikdə hazırlaşan digər abituriyentlər də yaxşı nəticə göstərə bilməyiblər. Builki suallar olduqca çətin idi».

**«ƏGƏR SUALLAR ÇƏTİN İDİSƏ... »**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Nağızadə isə qəbul imtahanlarında sualların çətin olması ilə bağlı səslənən iradlarla razılaşmır: « İmtahan suallarının bir hissəsi sadə, bir hissəsi orta, bir hissəsi isə çətin suallardan ibarət olur. Bu, ümumi standartdır. Yəni bütün suallar nə çətin, nə də asan ola bilər. Əgər bütün suallar çətin idisə, 269 nəfər 600-dən yuxarı nəticə göstərib, onlar üçün suallar niyə çətin olmadı? ».

III ixtisas qrupu üzrə 269 nəfər 600-dən çox bal toplayıb. Bu qrup üzrə ən yüksək göstərici isə 691 baldır.

**«İMTAHAN SUALLARI ÇƏTİN DEYİL, MƏKTƏB TƏHSİLİ AŞAĞIDIR»**

XXI Əsr Təhsil Mərkəzinin sədri Etibar


Etibar Əliyev

Əliyev hesab edir ki, qəbul imtahanlarına düşən suallarla abituriyentlərin bilik səviyyəsi arasındakı qeyri-bərabərlik məktəbdə verilən təhsilin aşağı olması ilə bağlıdır: «Yəni məktəbdə demək olar ki, təhsil verilmir. Abituriyentlər, şagirdlər imtahanlara repetitor yanında hazırlaşırlar. Məsələn, digər post sovet ölkələri ilə müqayisədə bu test sualları orta diaqnostik suallardır. Orta səviyyəli test suallarıdır. Qəbul imtahanlarındakı test sualları ilə abituriyentlərin bilik səviyyələri arasında qeyri-bərabərlik məktəb təhsilinin aşağı olması ilə bağlıdır».

***Nüşabə Fətullayeva***

# Qızmar günəş altında iş



**Bir neçə gündür Bakıda 38-40 dərəcə isti var. Azyaşlılar sərinləmək üçün soyunub özlərini şəhərdəki hovuzlara atır. Böyüklərin isə çoxu istidən qorunmaq üçün kölgəliklərə çəkilir, şəhərdə qarşılarına su kranı çıxan kimi əl-üzlərini yuyub sərinləyirlər. Ancaq bu istidə günün altında işləyənlər də var.**

### 42 DƏRƏCƏDƏ AÇIQ HAVADA İŞLƏYƏNLƏR

Günün altında tikintidə işləyən fəhlələrə yaxınlaşıb bu istidə necə işləmələrini soruşuram:

*- Bu açıq havada, qızmar günəşin altında necə işləyirsiniz?*

- Belə havada işləmək çox çətindir, ancaq biz öyrəşmişik.

Tikintidə qum daşıyan Əfqan da deyir ki, hava lap çox isti olanda fasilə edirlər. Ancaq indi işləyirlər. Onun işlədiyi vaxt saat düz günorta 2-ni göstərirdi.

*- Bu gün yəqin havanın çox isti olduğunu bilirsiz.*

- Bilirəm, 42 dərəcə isti var.

*- Bəs, belə istidə, açıq havada necə işləyirsiniz?*

- İşləyirik də. Özü də səhərdən axşama qədər işləyirik.

### İSTİ HAVADA ASFALT SƏRƏNLƏR

Əmək Məcəlləsinə görə, temperatur 41 dərəcəni keçibsə iş dayanmalıdır. Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bildir ki, 39-40 dərəcə isti altında işləmək belə həmin insanların sağlamlığı üçün ziyandır:

«Bu gün mən Mətbuat prospektində asfalt çəkən fəhlələrə qarşı belə münasibətin şahidi oldum. Bu, qeyri-insani münasibət idi. Açıq havada, isti asfalt sərirdilər. Orada nə bir sərinləşdirici içki var idi, nə də başqa bir tədbir görülürdü».

Əmək Məcəlləsinə görə, havanın temperaturu 41 dərəcədən çox olarsa, açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılır. İşçilərə sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilir. Fasilələr iş vaxtına daxil edilir və bu fasilələr zamanı əməkhaqqı işçilərin tarif maaşına görə ödənilir.


Sahib Məmmədov

### İSTİDƏ FİZİKİ İŞ MƏSLƏHƏT GÖRÜLMÜR

Günvurmaya məruz qalmış Bakı sakini Səttar Babayev başına gələnləri belə danışır: «Halım özümdə deyildi. Beynim qaynayırdı, içim yanırdı, yıxıldım, ayılanda həkimləri başımın üstündə gördüm». Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Mürsəl Həmidov deyir ki, isti günlərdə səhər saat 11.00-dan 17.00-a qədər uzun müddət küçədə qalmaq olmaz. Həkim deyir ki, belə isti havada fiziki iş görmək məsləhət görülmür.

***Kəbiran Dilavərli***

# Səfir Azərbaycan təyyarəsini «Taliban»ın vurmasını istisna etmir

««Taliban» deyir ki, Azərbaycan təyyarəsi hərəkatın üzvləri tərəfindən vurulub». Bunu «Trend»ə Azərbaycanın Pakistan və Əfqanıstandakı səfiri Daşqın Şikarov deyib. Səfir bildirib ki, təyyarədə texniki qüsurla bağlı versiya həqiqətə uyğun deyil: «Texniki baxımdan təyyarə bütün zəruri tələblərə cavab verib və təyyarəni təcrübəli ekipaj idarə edib».

İyulun 6-sı Bakı vaxtilə saat 02:10 radələrində Azərbaycanın «Silk Way» aviaşirkətinə məxsus İL-76 yük təyyarəsi Əfqanıstanın Pərvan əyalətində qəzaya uğrayıb. 9 ekipaj üzvü həlak olub. Bakı-Baqram marşrutu ilə hərəkət edən təyyarədə Heydər Əliyev beynəlxalq hava limanından qəbul etdiyi 18 ton yük olub. Yük tutumu 40 ton olan təyyarə 2005-ci ildə istehsal edilib və 2011-ci ilin iyununda növbəti texniki baxışdan keçib.


Xankəndi aeroportu

# Xankəndi aeroportunun açılmamasına səbəb «texniki məsələlər»miş?

*Tanınmamış Qarabağ Respublikasının rəhbəri Bako Sahakiyan AzadlıqRadiosunun Ermənistan xidmətinə deyib ki, onlar hazırda Xankəndi yaxınlığındakı aeroportu uçuşlara daha yaxşı hazırlamaq üçün əlavə işlər görürlər:* "Biz istəyirik ki, uçuşlar beynəlxalq standartlara cavab versin. Ona görə də biz işimizə məsuliyyətlə yanaşırıq". Aeroportda ilk uçuşun Ermənistan və Dağlıq Qarabağ arasında mayda olması nəzərdə tutulsa da, uçuş qeyri-müəyyən vaxta qədər təxirə salınıb. Bako Sahakiyan bu təxirə salınmanı "texniki" səbəblərlə izah edib.

Azərbaycan tərəfi isə bildirib ki, rəsmi Bakıdan icazəsiz Xankəndinə uçacaq təyyarə vurulacaq. İyulun 6-da Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru Arif Məmmədov yerli mətbuata bildirib ki, uçuşlar Dövlətlərarası Aviasiya Komitəsinin müddəalarına ziddir və onların icazəsi olmadan Xankəndinə uçuşların qarşısının alınacağı ilə bağlı bəyanatları qüvvəsindədir. Tanınmamış Qarabağ Respublikasının rəhbərliyi isə aeroportun açılışının təxirə düşməsinə bu hədələrin təsir göstərməsini inkar edir və təxirəsalınmanın səbəbinin "texniki məsələlərlə bağlı" olduğunu bildirir.

Bako Sahakiyan AzadlıqRadiosunun Ermənistan xidmətinə deyib ki, texniki səbəblər həll olunan kimi Xankəndindən uçuşlar başlayacaq. Amma o, uçuşların başlanacağı ilə bağlı dəqiq tarix göstərməyib. Bako Sahakiyan əlavə edib ki, hələlik uçuşların marşrutu Xankəndi-Yerevan və Yerevan-Xankəndi üzrədir və ümid edirlər ki, gələcəkdə beynəlxalq uçuşlar da həyata keçirəcəklər.

# Akif İslamzadə: «BƏLKƏ AZƏRBAYCANDA MONARXİYA QURAQ?!”



**« NİYƏ ÖZÜMÜZÜ ALDADIRIQ Kİ?»**

*- Akif bəy, son bir ildə siyasətlə aranıza məsafə qoymusunuz. Akif bəy indi enerjisini hara sərf edir?*

- Mən hesab etmirəm ki, gedən siyasi proseslərdən kənarda qalmışam. Hər halda bu gün kənardan baxıram və öz mülahizələrim var. Bəlkə də indi sözüm sizin üçün təəccüblü gələcək. Mənə elə gəlir ki, mənim kimi yüz minlərlə insan var ki, stabil və güclü dövlətin tərəfdarıdır. Mən son zamanlar belə qənaətə gəlmişəm ki, bəlkə Azərbaycanda monarxiya quraq? Mən bunu tam ciddi deyirəm. Niyə özümüzü aldadırıq ki? Hər beş ildən bir seçki keçiririk. Monarxiya quraq.

*- Hakimiyyətdə Əliyevlər olsun?*

- Başqaları yoxdur ki daha. Kim var ki? Tam ciddi deyirəm. Monarxiya qurulsun. Daxili çəkişmələrə ayrılan vaxt, enerji təhsilə, mədəniyyətə, səhiyyəyə yönəlsin. Güclü dövlətimizi yaradaq. Azərbaycanı istila edəndə, biz monarxiyanı bərpa edirik, qurmuruq. Bizdə şahlıq, sultanlıq olub. Biz əyalət olmuşuq.

*- Seçki olmasın?*

- Referendum keçirilsin. İkipalatalı sistem. Konstitusion monarxiya nəzərdə tuturam. Qərbi Avropada çox ölkələr konstitusion monarxiyalı dövlətdir. Burda elə bir dövlət qurmaq olar. Seçkilər olar. Parlamentə seçilmək olar.

*- Bunun xeyri nə olar cəmiyyət üçün?*

- Bu, cəmiyyətə su səpilmiş kimi olar. Sabitliyə daha çox riayət olunar. Yoxsa mən qorxuram bizi də bu Ərəbistanda gedən proseslər yaxalasın.

*- Onda belə çıxır ki, ərəb dünyasında baş verən hadisələrə münasibətiniz mənfidir?*

- Əlbəttə, mənfidir. Gözlərinin qarşısındakı diktator adamları 30 ildən sonra ayıldılar, gördülər. Dedilər ki, bunlar insan haqlarını pozanlardırlar. Bəyəm 10 il bundan qabaq pozmurdular?

*- Həmin adamlar 50 ildə qalmalı idilər?*

- Yox. Mən deyirəm ki, bu, bizim stabilliyimizi pozmasın. Gəlin, monarxiyanı quraq. Bu, 30 il də, 50 il də olsa, bu monarxiyalı dövlət qurulandan sonra sabitlik olar. Bunlar özləri də rahat olarlar. Dava hamısı yorğan, stol davası deyil? Biri oturar idarə edər. Amma, əlbəttə ki, onun üçün də xüsusi istedad, çeviklik lazımdır.

*- Yəni hesab edirsiniz ki, korrupsiya varsa, bu narahatlıqdandır?*

- Əlbəttə. Sabaha güman yoxdur da. Monarxiya olsa, korrupsiya da azalar, haradasa ədalət bərpa olar. Daha 5 ili gözləməyəcəklər də. Amma bu olmasa, 2015-2016-cı ilə qədər bizi ərəb dünyasında baş verən proseslər gözləyir.

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytından dinləyə bilərsiniz.**

***Babək Bəkir, Kamran Mahmudov***

# ANAR: "25 ildir ki, sədrəm, yorulmuşam"



*- Çoxları deyir, Sizə mükafat ona görə təqdim olunub ki, bu il sədrlik postunu təhvil verirsiz...*

- Mükafat alanda gərək sədrlikdən gedəsən? Bu nə qəribə məntiqdi. Bizim qurultay olacaq, qurultay ərəfəsində öz fikrimi deyəcəm. Artıq 25 ildir ki, sədrəm, yorulmuşam, özüm üçün də yaşamaq istəyirəm, bir az da rahat yaşamaq, yaradıcılıqla məşğul olmaq istəyirəm. Digər tərəfdən isə, Yazıçılar Birliyi üçün bu qədər işlər görəndən sonra (yeri gələrsə, sadalayaram) bunların hamısını qoyub getmək və sonra “nə olur-olsun” demək çətindi. O vaxt getmək istəyərəm ki, yerimə gələn adamın birliyi dağıtmayacağına, parçalamayacağına, binasını otaq-otaq satmayacağına əmin olum.

**Müsahibənin tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Nigar Köçərli: **“MKM-in gələn il də keçiriləcəyini dəqiq deyə bilmərəm”**



**Gördükləri iş Novruz bayramında şəkərbura yeməkdən o yana çıxmır**



**Bülbüldən, Vurğundan, Ordubadidən qalanlar...**



**Heminqueyi intihar həddinə casuslar çatdırıb?**



Salman Rüşdi: **“İnqilablar göstərdi ki, müsəlmanların da istəyi eynidir"**

# İctimai Palata korrupsiya piramidasından danışdı




**«Azərbaycanda korrupsiya piramida formasındadır və bu piramidanın başında hakim ailə dayanır. Son günlər hakim ailə ilə bağlı yeni korrupsiya faktları üzə çıxıb».Bunu iyulun 9-da İctimai Palatanın dəyirmi masasında çıxış edən Müsavat başqanı İsa Qəmbər deyib. «Hakim ailə ilə bağlı yeni korrupsiya faktlarının ictimai müzakirəsi» mövzusunda keçirilən dəyirmi masaya 100-dən çox siyasi, ictimai xadim və ekspert dəvət olunsa da, 30-a yaxın adam iştirak edib. Dəyirmi masa son zamanlar AzadlıqRadiosu və bəzi yerli qəzetlərdə nəşr olunan jurnalist araşdırmalarına həsr olunub.**

Tədbirdə çıxış edən İ. Qəmbər bildirib ki, «Azərbaycanda korrupsiya, rüşvətxorluq o qədər böyük bəlaya çevrilib ki, artıq milli təhlükəsizliyə, müstəqilliyə təhdididir». AXCP sədri Əli Kərimli isə deyib ki, mətbuat, internet inkişaf etdikcə, başqa faktlar da üzə çıxacaq:«Daha böyük vəsaitləri dövlət başçısının özü və ailəsi, ondan bir az kiçik vəsaitləri nazirlər, oliqarxlar, onlardan bir az kiçik vəsaitləri də icra başçıları, prokurorlar, polis rəisləri talan edir. Beləliklə, Azərbaycan xalqı talan edilir».

Azərbaycan rəsmiləri isə əksinə, ölkədə korrupsiya ilə mübarizənin getdiyini və bu mübarizənin başında prezident İlham Əliyevin dayandığını deyirlər.

***Sevinc Hüseynzadə***

# «Qadınları İrana daha çox evlənmək adı ilə aparırlar»



**Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyinin hüquqşünası Cabbar Həsənov, Təmiz Dünya İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova və Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizova İrana ərə gedən qızlar barədə fikirlərini bölüşürlər.**

<u>Mehriban Zeynalova:</u>

- «Son zamanlar bizi narahat edən məsələlərdən biri evlənmək adı ilə qadınların İrana aparılaraq insan alverinin qurbanına çevrilməsidir. Məsələn, insanları Türkiyəyə daha çox iş adı ilə aparırlarsa, İrana evlənmək adı ilə aparırlar. Son ildə bir neçə qadının İrana aparılaraq istismara məruz qalması aşkarlanıb. Valideynlərin övladlarını düşünmədən əcnəbiyə ərə verməsi, hətta bəzən onun nikaha daxil olmaması sonradan qadını tam hüquqsuz vəziyyətə salır. Onun istismarı üçün münbit şərait yaranır.

Burda bir çox hüquqi aspektlər var. Bəzən cinsi istismarın qurbanı olan şəxslər baş vermiş hadisələr barədə yaxınlarına və ətrafdakılara məlumat verməkdən çəkinir. Ailə üzvləri də elə düşünür ki, bunlar həqiqətən də ailə qurub, ailə şəraitində yaşayırlar...».

<u>Mətanət Əzizova:</u>

- «Qadın İran vətəndaşı ilə ailə qurur və nikahı İranda rəsmiləşdirir. Sonra ailə alınmırsa, hüquqları pozulmuş olur. İran qanunlarına əsasən, uşaq atanın yanında qalmalıdır. Və yaxud əmlak bölgüsü məsələsində fərq var. Əksər qadınlar uşaqlarını ordan Azərbaycana gətirə bilmir. Valideynlər uşaqlarını öz əlləri ilə İrana aparırlar və toy edirlər. Sonradan valideynlər Azərbaycana qayıdır və bir müddət keçəndən sonra öyrənir ki, qızı artıq yoxdur, insan alverinin qurbanına çevrilib...».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləyin.**



Yinqluk Şinavatra

# Hakimiyyət sülaləsində qadınlar

**«Qoy, səsinizi Dubay da eşitsin!». Xanım Yinqluk Şinavatra Tailandda izdiham qarşısında belə çağırış etməklə, əslində özünün siyasi sədaqətini büruzə verir. Dubayda onun devrilmiş qardaşı, sabiq baş nazir Taksin Şinavatra yaşayır. Xanım Şinavatra başqa bir mitinqdə isə kütləyə müraciətlə demişdi: «Siz mənim qardaşımı sevirsinizsə, onun bacısına da şans verərsiniz».**

Tailandlılar bu şansı ona verdilər və Yinqluk iyulun 3-də keçirilən ümumxalq seçkilərində qələbə qazandı. Hazırda dünyada sabiq liderlərin 20-dən artıq qadın qohumu ölkə siyasətində fəal iştirak edir. Onlar arasında 3 prezident, baş nazir, ən azı 10 prezidentliyə namizəd və ya ana müxalifət partiyası lideri var. Tarixin heç bir dövründə qadınlar sülalə hakimiyyətində bu qədər rol oynamayıb.

Bəzi ailələr öz hakimiyyətlərini prezident postunu ərdən arvada ötürməklə qoruyub saxlayırlar. Kristina Fernandes Argentinanın prezidenti postunu əri Nestor Kirşnerdən alıb.

Prezidentliyə iddialılar arasında liderlərin qız övladları da var - Cənubi Koreyada Pak Qın Xe, Fransada Marin Le Pen, Peruda Keyko Fuximori, Qvatemalada Zuri Rios Montt, Qazaxıstanda Dariqa Nazarbayeva. Ola bilsin ki, yeni qadın nəsli hakimiyyəti kişi sələflərindən daha yaxşı idarə etsin. Amma bu, istənilən halda sülalə hakimiyyəti olacaq.

***«The Economist» jurnalı***

# Bakının yeni dəbi - təndir



**«GÖZLƏYİN, BEŞ DƏQİQƏYƏ TƏNDİRDƏN İSTİ ÇÖRƏK ÇIXACAQ...»**

Təndir başına yığışıb isti çörək gözləyənlər hansısa kənddə deyillər. Bakının mərkəzində, İçərişəhərdəki Kiçik Qala küçəsindəki təndirə yapılmış çörəklərin bişməsini gözləyirlər. İsti çörək alanlardan biri Sabir Məmmədov deyir ki, qiyməti 1 manat olsa da, hər gün bir dənə bu çörəkdən alır. Təndirin yerləşdiyi xudmani kafenin meneceri Gülnarə Quliyeva deyir ki, 1 il əvvəl açılanda bura elə də tanınmayıb, indi isə onların öz müştəriləri var: «Deməzdim ki, bütün Bakı gəlib buradan çörək alır. Ancaq əminliklə deyirəm ki, bizim çörəyin öz xüsusi dadı var. Ona görə bir dəfə bu çörəyin dadına baxan, yenə bura gəlir».

**İLHAM ƏLİYEV, DMİTRİ MEDVEDEV, BAROZZO...**

Bu təndirin maraqlı qonaqları var. Son vaxtlar Azərbaycana rəsmi səfərlərə gələn əcnəbi qonaqların az qala hamısı bu təndirə baş çəkir. Burda Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Dmitri Medvedev, Avropa Komissiyasının sədri Joze Manuel Barozzo, məşhur fransız aktyor Jerar Depardye, səfirlər, başqa tanınmışlar çörək kəsib. Kafenin divarlarına onların da şəkilləri vurulub.

**BAKININ QIZMARINDA, QIZMAR TƏNDİR BAŞINDA**

Bu qızmar istidə, qaynar təndir başında çörək bişirən isə Natalya Mixaylovadır. 35 il əvvəl Uraldan, Perm şəhərindən Qaxa gəlin köçüb. Təndir qurmağı da, təndirdə çörək bişirməyi də Azərbaycanda öyrənib: «Mən əvvəllər bunu bacarmırdım. Xəmir yoğurmağı da, təndirdə çörək bişirməyi də mənə qayınanam öyrədib. Unu ələyirəm, maya, duz vururam, isti suda yoğururam. Yoğurandan sonra azca bitki yağı vururam. Xəmir acıyandan sonra kündə hazırlayıram».

**SON 1 İLDƏ TƏNDİRLƏRİN SAYI ARTIB**

Bakıdakı bu təndirdən başqa şəhərin başqa yerlərində də təndirlər var. Təndirçilərdən biri Hafiz Xanquliyev deyir ki, 5-6 il əvvəl təndirlər şəhər kənarında, yol qıraqlarında olub. Son 1 ildə isə şəhərin özündə də təndirlərin sayı xeyli artıb: «Tələbat var. Elə bil son vaxtlar şəhərə dəb düşüb».

Hafiz deyir ki, görəndə ki, təndir çörəyinin öz alıcıları var, o da iki təndir qurub.

**TƏNDİRİN UCUZU 20 MANAT, BAHASI 500 MANATDI**

Təndir sahibləri deyir ki, təndirləri əsasən cənub zonasında hazırlayırlar. Təndir hazırlayanlardan biri, Masallıda yaşayan Zaur Əliyev isə deyir ki, təndir sexləri əsasən Astaradadır:«Bir həftəyə bir təndir hazırlanır. Təndirin ucuzu 20 manat, bahası 300 manata olur. Uzunsov gürcü çörəklərinin bişirilməsi üçün hazırlanan təndirlər 500 manatadır. Kiçik təndirdə 6-8, böyük təndirdə isə 40-50 çörək bişirmək olur».

***Kəbiran Dilavərli***

# AzadlıqRadiosunda verilişlər:

*Unutmayın:* Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar




# “Simsiz teleqraf”

## Məhəllədə mal satanların diqqətinə!




Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa, bizə göndərin.

Materialı kompüterinizdən yollayırsınızsa, yükləmə səhifəsinə daxil olub göndərdiyiniz materiala başlıq və qısa məzmun əlavə edin. Ehtiyac varsa, anonimliyi təmin edirik.

Əvvəlki qaydada MMS kimi mobil telefondan da foto, audio və video yollamaq olar.

**Azərbaycandan:** (050) 213-56-30

**Azərbaycan xaricindən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

HotBird $13^0$E

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

24 saat

$42^0$ E

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

# Azadlıq Radiosu

## Multimedia



## 250 Plyus (7 iyul):

(real hadisələrə ironik baxış)

«Böyük futbolu Azərbaycana qızlar gətirir»

## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz